# AZƏRBAYCAN VETERANI

AZƏRBAYCAN VETERANLAR TƏŞKİLATI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

15 (110) 16 avqust 2018-ci il

İctimai-siyasi qəzet


## *Prezident İlham Əliyev Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında iştirak edib*




Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə toplantısında iştirak edib.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.

Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısını açıq elan edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev "Xəzər günü" ilə eyni vaxtda keçirilən Sammitin əhəmiyyətindən danışdı.

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə toplantısında çıxış etdi.

Göstərilən qonaqpərvərliyə və V Xəzər Sammitinin yüksək səviyyədə təşkilinə görə Nursultan Abişoviç Nazarbayevə təşəkkür edən Prezident İlham Əliyev Azərbaycanın Xəzəryanı ölkələrlə dostluq və mehriban qonşuluq münasibətləri uğurla inkişaf etdiyini, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri Xəzər dənizində sabitliyin və təhlükəsizliyin mühüm amili olduğunu vurğulayıb.

Sammitdə çıxış edən İran Prezidenti Həsən Ruhani, Rusiya Prezidenti Vladimir Putin və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Zirvə görüşünün əhəmiyyətinə toxunaraq onun Xəzəryanı ölkələr arasında əməkdaşlığın daha da inkişafına güclü təkan verəcəyini, siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin dərinləşməsinə xidmət edəcəyini bildirdilər.

## *Prezident İlham Əliyevin və Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin görüşü olub*

Prezident İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin görüşü olub.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev görüşdə çıxış edərək dedi:

-Sizin Aktauya gəlişinizlə bağlı sevincimizi bildiririk. İndi dəniz vasitəsilə biz çox yaxın olduq.

Qazaxıstan Prezidenti Nursultan Nazarbayev ölkəsində nəqliyyat sahəsində görülən işlərdən danışaraq Kurık və Lyanyunqan limanlarının açıldığını bildirdi, Asiyadan Avropaya yüklərin tranziti ilə bağlı Azərbaycan və Qazaxıstan arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğulayaraq bildirdi:

-Bugünkü görüş və nəhayət, bu Konvensiyanın imzalanması çox mühüm hadisədir. Xatırlayıram ki, Heydər Əliyev bunun üzərində çox güclü işləyib. Mən demişəm. Mən düşünürəm ki, indi o, bizim nəhayət, bu Konvensiyanı imzalamağımıza, bu çox mühüm məsələni həll etdiyimizə görə çox şad olardı. Mən Sizə böyük uğurlar arzulayıram.



Azərbaycan Prezidenti İlham Əliyev dedi:

-Çox sağ olun hörmətli Nursultan Abişoviç. Qardaş Qazaxıstan torpağında yenidən olmağımdan çox şadam. Mən birinci dəfə deyil ki, Aktaudayam və ilk növbədə, Sizi böyük nailiyyətlər, dəyişikliklər münasibətilə təbrik etmək istərdim. Şəhər dəyişib, müasirdir, xeyli müasir binalar var, infrastruktur, aeroport. Belə ki, bu, Qazaxıstanın və Qazaxıstan regionlarının dinamik inkişafının göstəricisidir. Əlbəttə ki, bu region həm coğrafi, həm tarixi, həm də Sizin burada həyata keçirdiyiniz infrastruktur layihələri baxımından bizim üçün çox yaxındır. Kurık limanının açılışı münasibətilə təbriklərimi çatdırıram. Əlbəttə ki, bunlar bizə daha sıx inteqrasiya etməyə imkan yaradacaq. Siz bilirsiniz ki, biz may ayında Ələt limanını açdıq. Yəni, bütöv nəqliyyat inteqrasiyası baş verib. Əlbəttə ki, bir-birimizin tranzit imkanlarından istifadə iqtisadi və siyasi nöqteyi-nəzərdən çox səmərəli olacaq. Xəzər çox mühüm nəqliyyat arteriyasına çevrilib və əlbəttə ki, bu gün Konvensiyanın imzalanması tarixi xarakterli sənəddir.

Bir çox mürəkkəb məsələlər üzrə konsensusun əldə edilməsində Sizin rolunuzu xüsusi qeyd etmək istərdim. Əlbəttə ki, Xəzərin bundan sonra da regionda sabitləşdirici rol oynaması üçün biz Konvensiyanın bütün müddəalarının yerinə yetirilməsinə səy göstərəcəyik. Bizim ikitərəfli münasibətlərimizə gəlincə, onlar çox dinamik inkişaf edir. Biz Sizin ötənilki səfərinizi xatırlayırıq. Nəticələr yaxşıdır, fəal əməkdaşlığın davam etdirilməsinə ümid edirik.

AZƏRBAYCAN VETERANI

# Biz veteranlar gənc nəslin gələcəyinə, xoşbəxt taleyinə inanırıq

***Hörmətli cənab Prezident.***
***Hörmətli Birinci vitse-prezident.***

Respublikamızın veteranları Sizin müharibə iştirakçılarının və şəhid ailələrinin sosial problemlərinə göstərdiyiniz diqqət və qayğınızı daim hiss edirlər. Biz avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri veteranları, Çernobıl əlilləri və şəhid ailələri üçün mənzillərin və avtomobillərin təqdim olunması kimi növbəti genişmiqyaslı aksiyanın həyata keçirilməsindən böyük təəssürat aldıq.

Sizin bu mərasimdə şəxsən iştirakınız, mənzillərdə yaradılmış şəraitlə tanış olmağınız, veteranların ünvanına dediyiniz səmimi, həvəsləndirici sözlər bizdə böyük məmnunluq doğurdu. Bilirik ki, son iyirmi yeddi il ərzində şəhid ailələrinə, müharibə veteranlarına dövlət tərəfindən 5500-dən çox mənzil, təxminən altı min minik avtomobili təqdim edilib və bu ilin sonuna qədər daha 500 insan mənzillərlə təmin olunacaq.

Sizin tərəfinizdən qəbul edilmiş, müharibə veteranlarının və şəhid ailələrinin də cəlb olunacaqları genişmiqyaslı özfəaliyyət proqramları bizi ruhlandırır. Bu, respublikamızdakı sosial vəziyyəti daha da yaxşılaşdıracaq.



Hörmətli cənab Prezident, bütün bunlara görə Sizə çox minnətdarıq. Biz veteranlar Sizin müdrik rəhbərliyinizlə gənc nəslin gələcəyinə, xoşbəxt taleyinə inanırıq.

***Respublika Veteranlar Təşkilatının Rəyasət Heyəti adından dərin hörmətlə,***
***Ağahüseynov Tofiq, general-polkovnik.***
**Azərbaycan Respublikası, Bakı şəhəri.**

## *Respublika Veteranlar Təşkilatı ADA Universiteti ilə əlaqələrini genişləndirir*

***ADA Universitetinin rektoru Hafiz Paşayevlə Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynovun görüşü keçirilib.***

Görüşdə Respublika Veteranlar Təşkilatının ölkənin ictimai-siyasi həyatında xüsusi rolu olduğu haqqında Hafiz Paşayevə ətraflı məlumat verilib. Gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmaları, hərbi xidmətə hazırlanmaları istiqamətindəki və eləcə də bütün sahələrdə əsl vətəndaş kimi yetişdirilməsində veteranların əməyindən ölkə səviyyəsində istifadə edildiyi bildirilib. Hər zaman vətənin keşiyində dayanan veteranların bu gündə sırada olduğu vurğulanıb. Tofiq Ağahüseynov Respublika Veteranlar Təşkilatının həyata keçirdiyi tədbirlərin, layihələrin ölkə ictimaiyyəti tərəfindən daima yüksək qiymətləndirildiyini bildirib.





Hafiz Paşayev də Respublika Veteranlar Təşkilatının ölkəmizin veteran hərəkatının həyata keçirilməsinin əsas iştirakçısı olduğunu bildirib. Vətənin dar günündə sinələrini sipər etmiş veteranların əzmi, mərdliyi və qəhrəmanlıqlarının hər kəsə örnək olduğunu qeyd edib. Veteranları tariximizin canlı yaddaşı, igidlik və məğrurluq təcəssümü kimi qiymətləndirib.

Respublika Veteranlar Təşkilatı və ADA Universitetinin gələcəkdə bir sıra məsələlərdə qarşılıqlı fəaliyyət göstərəcəklərinə dair danışıqlar aparılıb. Universitetin beynəlxalq layihələrin həyata keçirilməsində Respublika Veteranlar Təşkilatına köməklik göstəriləcəyi vurğulanıb.

Qonaqpərvərliyə görə ADA Universitetinin rektoru Hafiz Paşayevə minnətdarlıq ifadə olunub. Gələcəkdə belə görüşlərin daha tez-tez keçiriləcəyinə inam ifadə edilib.

# Ağsuda hərbi xidmətdən tərxis olunan gənclərlə görüş keçirilib





Ağsuda Rayon İcra Hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin təşkilatçılığı ilə hərbi xidmətini yeni başa vurub geri qayıdan gənclərlə görüş olub.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, gənclər əvvəlcə şəhərin mərkəzində, Ulu Öndərin adını daşıyan parkda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Sonra Heydər Əliyev Mərkəzində gənclərə Ulu Öndərin mənalı həyatı, çoxşaxəli siyasi fəaliyyəti ilə əlaqədar ətraflı məlumat verib.

Ağsu Uşaq-Gənclər Bədii Yaradıcılıq Mərkəzində ağsaqqalların, valideynlərin, müəllimlərin, ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağsu rayon şöbəsinin rəisi, polkovnik-leytenant Nizami Heybətov çıxış edərək gəncləri şərəfli hərbi xidməti uğurla başa vurmaları münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb.

Veteranlar, müəllimlər gənclərə mülki həyatda da səylə çalışmağı, məsuliyyətli olmağı tövsiyə ediblər.

Şərəfli əsgər həyatından yenicə ayrılan gənclər Vətənimizin azadlığı, torpaqlarımızın işğaldan azad edilməsi üçün Ali Baş Komandanın əmrinə hər an hazır olduqlarını bildiriblər.

Rayon icra hakimiyyəti başçısının müavini Sevil Mirzəliyeva bu il yaradılmasının 100 illik yubileyinin qeyd olunduğu Azərbaycan Ordusunun keçdiyi şərəfli yoldan, bugünkü hərbi qüdrətindən danışıb. Bildirib ki, ordumuzun gücü həm də onun sıralarında xidmət edən gənclərin Vətənə məhəbbətindədir.

# “Vətəndaşlıq borcumu yerinə yetirirəm”



"Vətən üçün hər birimiz bir əsgərik" devizi ilə keçirilən kütləvi vətənpərvərlik tədbirlərini xatırlayırıq. Digər tədbirlər kimi, bu tədbir də istər yeniyetmələrin, gənclərin, Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, istərsə də ordu ictimaiyyət münasibətlərinin daha da möhkəmləndirilməsində mühüm rol oynadı.

Həmin tədbirdə istər Böyük Vətən müharibəsi veteranları, istərsə də Dağlıq Qarabağ müharibəsi iştirakçılarını görən, onların söhbətlərini, tövsiyələrini dinləyən gənclərin vətənpərvərlik duyğuları kifayət qədər etibarlı səviyyədə formalaşacaqdı.

Belə tədbirlərdə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov da yaxından iştirak edir, veteran sözünün gənclərə dolğunluğu ilə çatdırılmasını özünə vəzifə borcu bilir; vətənsevər olmayanın Vətən, torpaq, dövlət, dövlətçilik haqqında tövsiyələri dinlənilməz, yadda qalmaz. Cəlil Xəlilov belə tədbirlərdə təkcə öz adından danışmır. "Vətəni sevin" - demir, hadisə və faktlar əsasında danışdıqları deyir Vətəni sevin, yəni həyat faktları söhbətin, tövsiyələrin əsası kimi təqdim edilir ki, bu da daha təsirli olur.

Respublikamızda veteranlara dövlət qayğısı kifayət qədər əhatəlidir, həssasdır. Bu qayğının yerlərdə həyata keçirilməsində təşkilatın rolu böyükdür. Təşkilat, müəyyən mənada, dövlətlə veteranlar arasında koordinasiyaedici missiyanı yerinə yetirir.

El kəlamı, atalar sözləri həmişə hər bir vətənsevərin həyat, yaşam fəlsəfəsi olub. "Allahsız yerdə otur, böyüksüz yerdə oturma" kəlamı belə kəlamlardandır. Veteranların iştirak etdiyi tədbirlər daha nüfuzedici olur. Yeniyetmə və gənclər üçün örnək olan belə ömürlər Vətən üçün yaşanıldığından həmin tədbirin də məhz Vətən üçün təşkil edildiyinə kimsə gümanla yanaşa bilməz. Cəlil Xəlilov belə bir potensialın Vətənin rifahına, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə istiqamətləndirməsinə səy göstərir.

Cəlil Xəlilov Simferopol Ali Hərbi Siyasi Məktəbini bitirib. Pamirdən başlayıb xidmət yolu. Müxtəlif hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib. Hərbi anda sədaqətlə xidmət edib.



Düşüncələrində - Vətən, dövlət, dövlətçilik. Xidmətində - Vətənə, dövlətə, dövlətçiliyə sədaqət. Bu xarakter vətənsevərlikdən rişələnir. Və o bu xarakteri ilə layiqli bir vətəndaş ömrü yaşayır. Vətən sevgisini görüş-görüş, söhbət-söhbət yeniyetmələrin, gənclərin yaşam fəlsəfəsinə hopdurur. Tədbirlərdə çıxışları həm olmuşların mahiyyətini tövsiyələrə çevirmə qabiliyyətinə, həm də milli mentalitetə söykənir; fakt və hadisəni azərbaycançılığı şərtləndirən ağsaqqallıqla təmasda, bağlılıqla təqdim edir, Əfqanıstan müharibəsində gördüklərini, müşahidə etdiklərini milli-mənəvi dəyərlərimiz fonunda, bu və ya digər mətləbin aşılanmasında vasitə bilir...

Onun taleyində Qarabağ müharibəsinin də izləri var...

Cəlil Xəlilov ədəbiyyatımıza, mədəniyyətimizə, incəsənətimizə bələd olan ziyalılarımızdandır. Böyük Nizami Gəncəvinin, Füzulinin, Nəsiminin, ... də, Səməd Vurğunun, Hüseyn Arifin, Bəxtiyar Vahabzadənin, Rəsul Rzanın da yaradıcılığına yaxşı bələddir. Böyük Nizaminin "Elmsiz, ey dünya, nədir dəyərin?" - kəlamının işığında Tacikistan Dövlət Universitetinin hüquq fakültəsində təhsil alıb. Ali təhsilli hüquqşünasdır. Bu, təhsil xətrinə təhsil deyil. Bu, aldığı təhsili təmsil etdiyi təşkilatın fəaliyyətinin dövlətçiliklə üzvi bağlılığını təmin etmə məramıdır...

Horadizdə keçirilən kütləvi vətənpərvərlik tədbirində çıxışında Cəlil Xəlilov demişdi: "Zaman fərdlər üçün də, ictimaiyyət üçün də xalq üçün, Vətən üçün, dövlət üçün yaşama fürsətidir. Bu fürsəti vətənpərvərliklə gerçəkləşdirə bilərsiniz. Hərbi xidmət hərbi and deməkdir. Vətəndaş üçün belə and Vətən andıdır. Mətni tərtib olunmayan bu andı hər kəs Vətənə sevgisiylə yazır. Bu andı möhtəşəm yazın, bu anda sədaqətlə yaşayın. Bu, təkcə mənim deyil, təmsil etdiyim təşkilatın üzvlərinin hamısının tövsiyəsidir..." Bu çıxışı bir tədbir miqyasında vətənpərvərlik dərsi bilmişdik. Belə dərslərin sayı kifayət qədər çoxdur...

Ehtiyatda olan polkovnik Cəlil Xəlilov dünyəvi biliklərin araşdırılmasının, bu biliklərin öz əksini gənc nəslin həyat fəlsəfəsində tapmasının cəfakeşlərindəndir. Qədim yunan filosofu Axilles deyirdi: "Hər şey axır, hər şey dəyişir". Milli mentalitetə bələdliyin, onu qorumağın, yaşatmağın milli mənlik şüurunun gələcək üçün önəmi həmişə böyük olub. Bu baxımdan Cəlil Xəlilov məlum nəzəri bilikləri azərbaycançılıq ideologiyası əsasında təhlil edib, ümumiləşdirib və nəticə etibarilə mütəxəssislərin diqqətini cəlb edən "Milli təhlükəsizliyin təmin edilməsində milli mənlik şüurunun rolu" mövzusunda dissertasiya yazıb, uğurla müdafiə edib, siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb. Bu elmi araşdırmaların tezisləri təbii ki, gənclərlə, hərbi qulluqçularla söhbətlərdə istinad edilməli mənbədir, bu mənbə təbii ki, ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında gərəklidir.

Milli Məclisin deputatı, ehtiyatda olan general-mayor Vladimir Timaşenko da, filologiya elmləri doktoru Bədirxan Başkeçidli də ömür payını Vətən üçün, Vətənin gənclərinin yüksək vətənpərvərlik duyğularıyla formalaşması üçün yaşayanların, bunu ömür düsturu bilənlərin sırasında olan Cəlil Xəlilovu yüksək mənəvi dəyərlərə malik vətəndaş kimi dəyərləndirirlər. Hərbçi hərbçi xarakteri haqqında fikir bildirir, alim alim haqqında; hərbçi və alim ömrü veteran ömrünün şaxələridir, hər biri ayrılıqda və vəhdətdə dəyərlidir.

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani onun veteran hərəkatında fəaliyyətini, xidmətlərini yüksək dəyərləndirir.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının fəaliyyəti, müəyyən mənada, zaman anlamında dünənlə sabahın arasında mənəvi-tarixi əlaqələndirmə missiyasıdır. Sabahlar üçün yaşamaq dünənləri unutmamaqdır. Dünənlər tariximizdir. Olmuşların sintezindən ən gərəklisini seçirsən və o gərəklilərin bazasında daha gərəklilərin icraçısı olursan. Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı təşkilat kimi, sədr müavini vətəndaş kimi məhz bu tezisin icraçısıdır. Təşkilatın sədr müavini bu təşkilatın fəaliyyətini böyük məktəb hesab edənlərdəndir. Müxtəlif tədbirlərdə, o cümlədən beynəlxalq tədbirlərdə Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycan Prezidenti İlham Əliyevin apardığı siyasəti dəstəkləyən, bu siyasətin gərəkli təbliğatçısı olan Cəlil Malik oğlu gənclərin vətənpərvərlik duyğularının daha yüksək səviyyədə formalaşdırılmasının cəfakeşidir. Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən kütləvi vətənpərvərlik tədbirində iştirakı, çıxışının mahiyyəti Cəlil Xəlilovun timsalında veteranların mövqeyini əks etdirir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov ehtiyatda olan polkovnik Cəlil Xəlilova yubileyi münasibətilə təbrik ünvanlayıb, onu “Azərbaycan Ordusunun 100 illiyi” (1918-2018) yubiley medalı və qiymətli hədiyyə ilə mükafatlandırıb, veteran hərəkatında xidmətlərini qeyd edib. Cəlil Xəlilovun bu səmimi təbrikə görə Müdafiə nazirinə təşəkkürünü bildirməklə yanaşı, "Vətəndaşlıq borcumu yerinə yetirmişəm..." - deyəcəyinə zərrəcə şübhəmiz yoxdu.

Fəaliyyəti dövlətin gənclər siyasətinin tərkib hissəsi olan təşkilatın sədr müavini İsveçrənin Cenevrə şəhərində sülh əsgərləri Beynəlxalq Assosiasiyasının təşkilatçılığı ilə keçirilən "Sülh Əsgərlərinin Beynəlxalq Günü" tədbirində də çıxış edib. Onun məzmunlu məruzəsi maraqla dinlənilib. Həmin tədbirdə Cəlil Xəlilov Nobel Sülh mükafatı yubiley medalı ilə təltif olunub. O, bu medalı təşkilatın fəaliyyətinə verilən dəyər hesab edir.

...“Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı bundan sonra da dövlətə, dövlətçiliyə sədaqətlə xidmət edəcək”, - ehtiyatda olan polkovnik Cəlil Xəlilov bu amalla yaşayır...

"Azərbaycan Ordusu"

# Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun xatirəsinə həsr olunmuş tədbirlər keçirilib

*Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Gədəbəy rayonunda Azərbaycanın Milli Qəhrəmanı Məzahir Rüstəmovun xatirəsinə həsr olunmuş tədbirlər keçirilib*



Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, xatirə günü tədbirlərinə şəhid zabitin Gədəbəy şəhərinin mərkəzində ucaldılmış abidəsi qarşısında keçirilən anım mərasimi ilə start verilib.

Müdafiə Nazirliyinin rəsmiləri, qəhrəmanın valideynləri, vaxtilə xidmət etdiyi hərbi hissənin, eləcə də rayon ictimaiyyətinin nümayəndələri şəhidin xatirəsini yad edərək, abidəsi önünə gül dəstələri düzüblər. Şəhidin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Layihənin müəllifi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani belə tədbirlərin Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olanların xatirəsinə ehtiram əlaməti olmaqla yanaşı, gənclərin vətənpərvərlik nümunələri, qəhrəmanlıq ənənələri ruhunda tərbiyəsində, ordumuzda layiqli əsgərin yetişməsində xüsusi əhəmiyyət daşıdığını və Müdafiə Nazirliyi rəhbərliyinin bu işə xüsusi önəm verdiyini vurğulayıb.

Qeyd olunub ki, Məzahir Rüstəmov 1960-cı ilin baharında Bakıda doğulub. İndiki Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirib, dədə-baba yurdu olan Gədəbəydə vəziyyət gərginləşəndə, Başkənd erməni quldurlarının şeytan yuvasına çevriləndə (bu kənd 1920-ci ildə sovet hakimiyyəti rəhbərliyinin ikili siyasəti nəticəsində ermənilərə bağışlanıb və Azərbaycanın ərazisi olmasına baxmayaraq Ermənistanın xəritəsinə salınmış, anklav kimi rəsmiləşdirilib) Dövlət Mətbuat Komitəsində tutduğu məsul vəzifədən imtina edərək könüllü Azərbaycan Ordusuna yazılıb və Gədəbəy rayonuna yollanıb. Bu, o vaxtlar idi ki, Gədəbəy rayonunun da sərhəd kəndləri intensiv atəşə tutulur, dinc əhali vəhşicəsinə qətlə yetirilir və Başkənd isə kabusa çevrilmişdi.

Professor İzzət Rüstəmov bildirib ki, oğlunun vəzifəsini buraxıb könüllü cəbhəyə getməsi çoxlarına təəccüblü görünsə də, o, həqiqətən ön səngərdə, qanlı döyüşlərdə olub və Vətənə övladlıq borcunu nümunəvi xidməti ilə ödəyib.

Nəzərə çatdırılıb ki, 1992-ci il avqustun 6-da düşmənlər tank və digər zirehli texnikalar, canlı qüvvə ilə qəflətən Mutudərə istiqamətində hücuma keçəndə bölük komandirinin müavini leytenant Məzahir Rüstəmov bölüyün əsgərləri ilə birlikdə döyüş növbəsində idi. Onlar mühasirəyə düşsələr də son gülləyə, son nəfəsədək mübarizə aparıblar. Erməni quldurlarına



əsir düşməmək üçün gənc zabit sonuncu qumbaranı sinəsinə sıxaraq həm özünü, həmdə onu əsir götürmək istəyən bir neçə düşməni məhv edib. Azərbaycan ordusunun əkshücumu nəticəsində Məzahirin və onun silahdaşlarının intiqamı tezliklə alınıb. Başkənd quldurlardan tamamilə azad edilib, bir çox strateji əhəmiyyətli zirvələr ələ keçirilib, Gədəbəyin sərhədyanı kəndlərinin təhlükəsizliyi təmin edilib. Məzahir Rüstəmovun nəşi isə avqustun 9-da Bakıya gətirilib və izdihamın iştirakı ilə Şəhidlər xiyabanında son mənzilə yola salınıb.

A.Qurbani bildirib ki, qəhrəman döyüşçü ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Onun adı əbədiləşdirilərək Bakıda təhsil aldığı orta məktəbə və küçələrdən birinə verilib, yaşadığı binaya xatirə lövhəsi vurulub, Gədəbəydə abidəsi ucaldılıb. Məzahirin ailəsi həmişə dövlətimizin və Müdafiə Nazirliyi rəhbərliyinin diqqət mərkəzindədir. Məzahir döyüşə gedərkən altı aylığında olan qızı Təhminə isə artıq boya-başa çatıb, ailə həyatı qurub və bir övladı var. O, dövlət qulluğunda çalışır.

Milli Qəhrəmanın atası professor İzzət Rüstəmov və anası Rəfiqə xanım bütün şəhid ailələrinə, Qarabağ müharibəsinin veteranlarına, döyüşlərdə sağlamlığını itirənlərə dövlət qayğısının yüksək səviyyədə olduğunu qeyd edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya, Müdafiə Nazirliyi rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Məzahir Rüstəmovun döyüşçü dostu Maarif Abbasov, xidmət etdiyi hərbi hissənin zabiti Eldəniz Nəsirov və başqaları çıxış edərək Milli Qəhrəmanın şücaətindən danışıb və şəhidlərimizin intiqamını almaq üçün Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını bəyan ediblər.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin ifasında təqdim edilən "Bir bayraq altında cəm olsun hamı, cənnət Qarabağa səferimiz var!" ədəbi-bədii kompozisiya tədbir iştirakçılarının işğal altında olan şəhər və rayonlarımızın da tezliklə azad ediləcəyinə əminliklərini daha da artırıb.

Növbəti tədbir Milli Qəhrəmanın 26 il öncə şəhidlik zirvəsinə ucaldığı Mutudərə kəndi yaxınlığındakı yüksəklikdə keçirilib.

Bir il öncə şəhid qəhrəmanın valideynləri bu bölgədə Vətən müdafiəçiləri ilə görüşərkən bu yerdə xatirə abidəsinin ucaldılmasının həm ailə üzvləri və mutudərəlilər üçün təsəlli, həm də buradan keçib zirvələrə döyüş növbəsinə gedən gənc əsgərlər üçün nümunə ola biləcəyini bildiriblər.

Sonra abidənin üzərindəki bəyaz örtük götürülüb. Əsgərlər yaylım atəşi ilə qəhrəmanlara ehtiramlarını bildiriblər. Mutudərə ağsaqqalları, Məzahir Rüstəmovun silahdaşları, bölgənin keşiyində ayıq-sayıq dayanan, düşmən təxribatlarının qarşısını mərdliklə alan igid döyüşçülər çıxış edərək Azərbaycan Ordusunun güc və qüdrətindən danışıb, istənilən döyüş əmrini yerinə yetirməyə hər an hazır və qadir olduqlarını bəyan ediblər.

Milli Qəhrəmanın anası Rəfiqə xanım hər bir Vətən əsgərinin simasında Məzahiri gördüyünü deyib, Vətən keşiyində duran oğulların xidmətlərini başa vuraraq evlərinə qayıtmalarını arzulayıb.

Professor İzzət Rüstəmov şəhid ailəsinin bu arzusunu reallaşdırdığına görə bir neçə gün öncə bölgəyə səfər edən, döyüşçülərlə yanaşı, yerli sakinlərlə də görüşən, onların problemləri ilə maraqlanan müdafiə naziri, general-polkovnik Zakir Həsənova və nazirliyin digər rəhbər heyətinə dərin minnətdarlığını bildirib.

Gəncə Qarnizonu Zabitlər Evinin Səyyar bədii təşviqat dəstəsi qəhrəmanlıq, vətənpərvərlik mövzusunda ədəbi-musiqili kompozisiya təqdim edib.

Milli Qəhrəman Məzahir Rüstəmovun xatirə günündə bölgədəki hərbi hissələrdə, dayaq məntəqələrində, döyüş mövqelərində anım tədbirləri, görüşlər keçirilib, qəhrəman haqqında çəkilmiş sənədli filmlərin nümayişi və kitabların təqdimatı olub.

AZƏRTAC

AZƏRBAYCAN VETERANI

# Ürəklərdə yaşayan sərhədçi milli qəhrəmanlarımız








Vətən Sərhəddən başlanır! Başqa sözlə, sərhəd Vətən torpağının başlanğıcı və sonudur. Hər bir dövlətin müstəqilliyinin təməl sütunlarından və ən mühüm dövlətçilik rəmzlərindən biri də onun sərhədlərinin mövcudluğur. Hər bir dövlətin ərazi bütövlüyü, toxunulmazlığı, suverenliyi və müstəqilliyi prinsipləri mövcuddur. Bunların hamısı ölkənin sərhədləri ilə əlaqədardır.Vətən sərhədinin mühafizə olunması, onun toxunulmazlığının təmin olunması hər bir ölkə vətəndaşının müqəddəs borcudur. Tarixin bütün dönəmlərindən bu günümüzə qədər ölkəmizə, onun yerləşdiyi relyefə, təbii sərvətlərinə və digər imkanlarına görə zaman-zaman yadelli dövlətlərin basqınları olmuşdur. Bütün bu dövrlər ərzində insanlarımız bu hücümlara qarşı mübarizə aparmış, öz dövlətinin təhlükəsizliyini qorumuşdur. Yaşadığımız Müstəqil Azərbaycanımızın bu gün müqəddəs sərhədlərini qəhrəman



sərhədçilərimiz göz bəbəyi kimi qoruyurlar. Sərhədçi Milli qəhrəmanlarımızı hər birini tanımalı və hörmətlə anmalıyıq.

Azərbaycan Respublikasının Milli Qəhrəmanı polkovnik-leytenant Atakişiyev İntiqam Vahid oğlu 7 aprel 1974-cü ildə Qəbələ rayonunda anadan olub.

1981-1991-ci illərdə Qəbələ rayonunun Tüntül kənd orta məktəbində, 1991-1992-ci illərdə isə Bakı şəhəri 61 saylı texniki peşə məktəbində oxuyub.

İntiqam Atakişiyev 1992-1995-ci illərdə Müdafiə Nazirliyinin 776 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olarkən atıcıdan taqım komandirinin müavini vəzifəsinədək qalxıb. O, 1995-ci ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinin nəzdində taqım komandirləri məktəbini, 1997-ci ildə isə Türkiyə Respublikasının Jandarma Komandirləri məktəbini bitirib.

İ.Atakişiyev 1995-ci ildən 2004-cü ilədək «N» saylı hərbi hissədə taqım komandiri vəzifəsindən hərbi hissə komandirinin müavini vəzifəsinədək yüksəlib.

İ.Atakişiyev 1992-1994-cü illərdə Qubadlı, Laçın, Ağdam, Füzuli, Ağdərə və Tərtər bölgələrində erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edib.

1995-ci ilin mart ayında dövlət çevrilişi etmək istəyən qüvvələrin zərərsizləşdirilməsində şəxsi igidlik və şücaət göstərib.

İ.Atakişiyevin dövlətin qorunmasında xidmətləri yüksək qiymətləndirilib və dahi öndərimiz Heydər Əliyevin 1995-ci il 4 aprel tarixli 307 saylı Fərmanı ilə İntiqam Vahid oğlu Atakişiyev «Azərbaycanın Milli Qəhrəmanı» Fəxri adına layiq görülüb.Polkovnik-leytenant İntiqam Atakişiyev hazırda Sərhəd Qoşunlarında xidmət edir, vətənpərvərlik, sərhədsevərlik nümunəsi göstərir.

Azərbaycanın Milli Qəhrəmanı baş leytenant Əliyev Əmiraslan Rza oğlu 30.08.1960-cı ildə Naxçıvan şəhərində anadan olub. Naxçıvan Sərhəd Diviziyasının DSMB-də baş zabit vəzifəsində xidmət edib. 17.03.1995-ci ildə dövlət çevrilişinə edilən cəhdin qarşısının alınması zamanı həlak olub.

4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə «Azərbaycanın Milli Qəhrəmanı» Fəxri adına layiq görülüb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02.10.1995-ci il tarixli qərarı ilə Naxçıvan Sərhəd Diviziyasının «N» saylı sərhəd zastavasına Azərbaycanın Milli Qəhrəmanı baş leytenant Əliyev Əmiraslan Rza oğlunun adı verilib.

Azərbaycanın Milli Qəhrəmanı baş leytenant Məmmədov Eldar Harun oğlu 10.01.1968-ci ildə Bakı şəhərində anadan olub. Sərhəd Qoşunları İdarəsinin Kadrlar şöbəsinin zabiti vəzifəsində xidmət edib. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə aldığı güllə yarasından 23.02.1993-cü ildə həlak olub.

11 dekabr 1994-cü il tarixli 247 saylı Fərmanı ilə «Azərbaycanın Milli Qəhrəmanı» Fəxri adına layiq görülüb. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 02.10.1995-ci il tarixli qərarı ilə Göytəpə Sərhəd Dəstəsinin «N» saylı sərhəd zastavasına Azərbaycanın Milli Qəhrəmanı baş leytenant Məmmədov Eldar Harun oğlunun adı verilib.

Azərbaycanın Milli qəhrəmanı gizir Cəfərov Faiq Əliqulu oğlu 01.05.1974-cü ildə Cəlilabad rayonunun Şiləvəngə kəndində anadan olub. «Bakı» ƏNBM-də 3-cü bölmənin nəzarətçisi vəzifəsində xidmət edib. Dövlət çevrilişinə edilən cəhdin qarşısının alınması zamanı şəxsi şücaət və igidlik göstərib. 27 dekabr 1995-ci il tarixli 427 saylı Fərmanı ilə «Azərbaycanın Milli Qəhrəmanı» Fəxri adına layiq görülüb.21.08.1999-cu ildə avtomobil qəzasında həlak olub.

Azərbaycanın Milli Qəhrəmanı kursant Mansurov Bəhruz Qəhrəman oğlu 13.03.1975-ci ildə Yardımlı rayonunun Telavar kəndində anadan olub. 1993-cü ildə Bakı Ali Komandirlər Məktəbinə daxil olub. 1995-ci ilin mart ayında dövlət çevrilişinə edilən cəhdin qarşısının alınması zamanı həlak olub.

4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə «Azərbaycanın Milli Qəhrəmanı» Fəxri adına layiq görülüb.Azərbaycan Resublikası Nazirlər Kabinetinin 02.10.1995-ci il tarixli qərarı ilə Göytəpə Sərhəd Dəstəsinin «N» saylı sərhəd zastavasına Azərbaycanın Milli Qəhrəmanı kursant Mansurov Bəhruz Qəhrəman oğlunun adı verilib.

Azərbaycanın Milli qəhrəmanı əsgər İsgəndərov Eltun Xaləddin oğlu 21.10.1990-cı ildə Samux rayonunun Əhmədbəyli kəndində anadan olub. 22.10.2008-ci ildə hərbi xidmətə çağırılıb. Sərhəd Qoşunlarının N saylı hərbi hissəsində qulluq edib. 2009-cu il iyun ayının 18-də Cəlilabad rayonunun Əsədli kəndi yaxınlığında dövlət sərhədinin qorunması üzrə döyüş tapşırığını yerinə yetirərkən sərhəd pozucularının atdığı qumbaranın üstünü bədəni ilə örtərək komandirlərinin və əsgər yoldaşlarının həyatını öz həyatı bahasına xilas edib.

25 iyun 2009-cü il tarixli 349 saylı Fərmanı ilə «Azərbaycanın Milli Qəhrəmanı» Fəxri adına layiq görülüb.

AZƏRBAYCAN VETERANI

# "Sən qorxaqsan, sən kölesən, çünki sən ermənisən"

*A.S.Puşkin*

*əvvəli ötən sayımızda*

Ermənilərin 1828-ci ildəki Türkmənçay müqaviləsinin bağlanılmasından sonra kütləvi surətdə Qarabağa, İrəvana və digər Azərbaycan xanlıqlarının ərazilərinə köçürülməsi həmin işə birbaşa rəhbərlik etmiş rus diplomatı, şairi A.Qriboyedovun rus alihəzrətlərinə (Çara) yazdığı 1828-ci il tarixli məktubdan tam aydın görünür. Odur ki, həmin məktubu eyni ilə təqdim etməyi lazım bildim.

*Ermənilərin Persiyadan (İrandan) bizim vilayətlərə köçürülməsi haqqında məktub*

Alihəzrətinizə ermənilərin Persiyadan köçürülməsi üçün tətbiq edilən üsullar haqqında və onların indi bizim vilayətlərdə yerləşdirilməsi barədə mənim vasitəmlə daha mötəbər məlumat almağınız lazımdır. Həmin predmet üzrə mənə məlum olan həqiqət budur: polkovnik Lazarev özünü bu mühacirliyin əsas təşviqedicisi saymışdır, bu barədə, bizə məlum olduğu kimi, o, kifayət qədər aşkar, lakin əsassız öz fikrini izah etmişdir, ona görə ki, onun burada ermənilərin heç bir anlayışı yox idi, onlar təkcə Rusiyaya etibar etməklə və onun qanunları altında olmaq arzusu ilə hərəkət edirdilər. Traktat onlara bunun üçün tam hüquq verirdi. Köçürülmə zamanı fəal vasitələr: knyaz Arqutinski, Qamazov olmuşlar, tabeçilikdə olan digər zabitlər isə artıq onların təsiri altında hərəkət edirdilər. Polkovnik Lazarev yalnız olduqca yersiz proklamasiyalar (bəyannamələr) uydurulması barədə, nizami erməni könüllü qoşunları formalaşdırılması barədə düşünürdü, hərçənd xoş niyyətlə, lakin düşünmədən hətta öz rəhbərliyinə malik Qarabağın özünü və digər vilayətləri öz niyyətləri dairəsinə daxil etməyi fikirləşirdi ki, oralarda çoxdan təsis edilmişlərdən olanlara xüsusi səlahiyyət verilə bilməzdi. Knyaz Arqutinski bir neçə dəfə ona rəftarı barədə, onun necə lovğa, yüngül və faydasız olması barədə göstərmişdir. Polkovnik Lazarevin bütün başqa işləri də bu cür olmuşdur və onlar barədə geniş danışmağa dəyməz. Yalnız onu əlavə etmək lazımdır ki, o, mənasız adamdır, lakin pozğun deyil, dövlət pullarını xəlvəti mənimsəmək və qəsdən zərər vurmaq qabiliyyətli deyil. Urmiyadan gəlmələrə pul müavinəti paylanarkən bir çox qarışıqlar baş vermişdi, lakin sui-istifadə olmamışdı: yoxsullara az, varlılara çox verilmişdir. Bu bizim qoşunların həmin əyaləti tələsik tərk etdiyinə görə baş vermişdi. Tələsərək araşdırmadan hərəkət etmişdilər və odur ki, pullar az kömək etdi, çünki pis paylanmışdı. Bu, söz gəlişi, mənə məlum olan yeganə hadisədir. Köçürülmə zamanı belə olmuşdur, lakin onların bizdə yeni yerlərdə yerləşdirilməsi zamanı isə hər şey mənasız, fərsiz və bağışlanılmaz edilmişdir. Onları idarə etmək üçün komitet təsis edilmişdir, o, heç şeydən xəbərdar olmamış və xüsusən məzəmmətə layiqdir ki, alihəzrətinizdən onun bu halda necə hərəkət etməsi barədə ən dəqiq və ətraflı təlimat almışdı:

1) Ermənilərin çox hissəsi müsəlman mülkədarlarının torpaqlarında məskunlaşdırılmışdır. Buna hələ yayda yol vermək olardı. Torpaqların sahiblərinin, müsəmanların çox hissəsi köç düşərgələrində olmuşlar və başqa dinli yad gəlmələrlə əlaqə saxlama halları az olmuşdur.

2) Ağac (odun) tədarük edilməmişdir və köçürülənlərin möhkəm yerləşdirilməsi üçün digər yerlər ayrılmamışdır. Bütün bunlar vaxtında əldən verilmişdir. Bu il üçün səhvi düzəltmək gecdir. Köçürülənlər özləri darısqallıqdadırlar və müsəlmanları sıxışdırırlar, onlar isə əsaslı narazılıq edirlər. Alihəzrətinizə məlumdur ki, ümumiyyətlə buradakı sakinlərin hamısı birlikdə köçkün hesab edilməlidir, çünki onların hamısı sərdar tərəfindən müharibə vaxtı köçürdülmüşlər və ən kasıb vəziyyətdədirlər.

3) Dövlət pul yardımları tamamilə ağılsız paylanmışdır: ehtiyacı olanların sayı və kimə nə qədər lazım olması barədə doğru məlumat olmadan, dilənçilər kimi, hər nəfərə bir, iki rubl paylamışlar. Birdəfəlik verilən 25 rubl müxtəlif vaxtlarda hissə-hissə verilən məbləğdən on dəfə əhəmiyyətlidir. Heç bir ümumi tədbir, məsələn, bütöv cəmiyyətin saxlanması üçün, habelə gələn ilin əkini üçün taxıl alınması və digərləri kimi tədbirlər görülməmişdir. Alihəzrətinizə köçürmə komitəsinin dəyərsiz hərəkətlərini göstərməklə, mən ədalət naminə qeyd etməliyəm ki, əgər orada indi heç olmayan qabiliyyətli adamlar da otursaydılar, onlar da böyük çətinlik çəkərdilər. Vilayət idarəsində hətta hələ Arazın o tərəfindəki torpaqların və kəndlərin səthi siyahısı da yoxdur. Arazın bu tərəfindəki mahallarda da hələ sakinlərin sayı məlum deyil. Malikanələr barədə heç deyiləsi deyil: kimə nə məxsus olmasını heç kim bilmir.

Beləliklə, komitə istifadə etməli olduğu lazımi məlumatları heç yerdən ala bilməmişdir. Buradakı vilayət rəisi deyir ki, o, yeni gəlmiş ermənilərin çoxunu Arazın o tərəfinə köçürmək istəyirdi, lakin onlar alihəzrətinizdən ilk dəfə onları yerləşdirdikləri yerlərdə qalmağa icazə verməyi xahiş etmişlər və buna sizin razılığınızı almışlar. Lakin podpolkovnik knyaz Arqutinski həmin tədbirin yerinə yetirilməsinin mümkün olacağından ümidini itirmir. Bu məmur özünün idarəetmə bacarığına və sədaqətliliyinə görə rəhbərliyin tam etimadına layiqdir. 30 min rubl gümüşlə və 2 min qızıl əşrəfi yenidən köçürülənlərə yardım üçün təyin edilmişdir, artıq xeyli tələbkarlıqla istifadə ediləcəkdir. Əgər alihəzrətiniz ən yaxın vaxtda həmin predmet üçün daha iki o qədər buraxmaq qərarı versəniz, göstərilən gəlmələrin rifahını tamamilə sabitləşdirərdiniz. Yalnız yardım tələb edənlərin sayını buyurun düşünməyə qəbul edin ki, onların hamısı vaxtilə xəzinəyə vergi ödəyəcək. Rusiyada bu sayda adamların orta vergi qiymətilə müqayisə edin və alihəzrətinizin bu işə verdiyi bütün məbləğ onun gətirməli olduğu fayda ilə müqayisədə nəinki mötədil, hətta cüzi görünəcəkdir. Bilmirəm, alihəzrətinizə həmin iş məhz bu nöqteyi-nəzərdən təqdim edilmişdirmi və siz onu bəyənəcəksinizmi?

Yardımın xəzinədən heç bir xərc tələb etməyən daha bir mühüm mənbəyi sərdar mal-qarası ola bilər, o, hazırda 30 min ədədə qədərdir, vaxtilə sərdar tərəfindən sakinlərə vergi öhdəliyi kimi saxlamaq üçün paylanmışdı. O, sahibkar kimi onlardan öz növbəsində yağ, yun, bala artımını və başqalarını alırdı. Həmin mal-qaranın mövcud olması barədə mən çoxlarından eşitmişəm və vilayət idarə heyətinin üzvləri Petrikovdan və Mendoksdan qəti yəqin etmişəm. Həmin sərdar təsərrüfatını davam etdirmək xəzinə üçün səmərəli deyil və bizim inzibatçılığımızda sadəcə mümkünsüzdür, əsgərlərə yemək üçün paylamaq isə biryolluq sərf etmek deməkdir; lakin həmin mal-qaranın köçkünlərə paylanması onların təsərrüfatını hiss olunacaq dərəcədə artırar və yaxşılaşdırar. Mən kənardan nə qədər çalışdımsa da və məhz bunun üçün hədsiz qabiliyyətli olan tərcüməçim Dadaşev vasitəsilə, bu məqsədlə onu keçib getdiyimiz kəndlərdə, Eçmiədzində, burada adamlardan soruşmağa məcbur etməklə pulların paylanması zamanı hansısa sui-istifadələr olması barədə öyrənim, heç kim bu barədə şikayət etmədi və o, həqiqətən olmamışdır. Vilayət rəisinin tərcüməçisi Mirzə Tatus tanınmış fırıldaqçıdır, lakin ona bu iş barədə heç bir tapşırıq verilməmişdir; eynilə onun qardaşı Sürməli mahalının rəisi də belə hamının tanıdığı yaramazdır, indi mən onun barəsində söz gəlişi xatırladıram, lakin köçürülmə zamanı o da heç nəyə qarışmamışdır. Gəlmələrin yerləşdirilməsinə indi rəhbərlik edənlərin, xüsusilə knyaz Arqutinskinin səylərindən çox şey gözlənməlidir: artıq o, yəqin ki, sələfi mayor Vladimirovun səhvləri səviyyəsinə düşməyəcək. Biz onunla həmçinin müsəlmanları necə inandıracağımız barədə çox düşünürdük ki, onları indiki sıxıntılarla (çətinliklərlə) barışdıraq və inandıraq ki, bu uzunmüddətli olmayacaq və ermənilərin ilk dəfə buraxıldıqları torpaqları həmişəlik zəbt edəcəkləri barədə onların (müsəlmanların) qorxusunu aradan qaldıraq. Bu barədə mən polismeysterə, idarə heyəti üzvlərinə və burada mənim yanımda olmuş xanlara da demişəm. Əgər alihəzrətiniz Tiflis dövlət ekspedisiyasından buraya bir neçə məmur göndərilməsini tapşırsanız, həqiqi xeyirxahlıq edərsiniz.

Burada iş görməli olan heç kim, hətta mirzə, həmçinin tərcüməçilər yoxdur. Mən belə düşünürəm ki, bunun üçün Tiflisdəki erməni məktəbindən bir neçə şagird seçmək olardı. Yenə də köçürülənlərə qayıdaraq, mən hesab edirəm ki, onlar bizim Gürcüstan ermənilərindən, ümumiyyətlə xəzinəyə heç bir fayda verməyən alverçilərdən xeyli faydalıdırlar, Persiyadan (İrandan) köçənlərin isə çox hissəsi sənətkarlar və əkinçilərdir.

*1828-ci il*

Beləliklə, Çar Rusiyasının əvvəlcədən hazırladığı və ardıcıl olaraq icra etdiyi plana əsasən Dağlıq Qarabağ və Azərbaycanın digər ərazisində yerləşdirilən ermənilər gözəl Azərbaycan atalar sözü olan "özümə yer eləyim, gör sənə neyləyəcəm" deyiminə uyğun olaraq XIX əsrin sonlarından etibarən millətçi "Hnçak" və "Daşnaksütyun" partiyaları yaradılandan sonra azərbaycanlılara məxsus torpaqlardan onların qovulması işinin sistemli şəkildə icrasına başladılar. İki əsri əhatə edən bu proses, azərbaycanlılara qarşı ən müxtəlif formalarda - soyqırım, deportasiya, terror, separatizm, tarixin saxtalaşdırılması və milli mədəniyyət abidələrinin məhv edilməsi ilə müşayiət edilən mənəvi terror formasında təzahür etmişdir. 1905-ci ildə Azərbaycanda yaşayan əhaliyə qarşı həyata keçirilən kütləvi qırğınlardan sonra ermənilər dəfələrlə terrorlara əl atmış, 1918-ci ildə Azərbaycanda soyqırımı həyata keçirməyə başlamışlar.

Ermənilər bu hərəkətlərini sovetlər dövründə də davam etdirməyə nail oldular. Belə ki, Azərbaycanın təxminən 20000 kvadrat kilometr ərazisi Ermənistanın tərkibinə qatıldı. 1923-cü il iyul ayının 7-də isə Azərbaycan SSR Kommunist Partiyası Mərkəzi İcraiyyə Komitəsi "İnzibati mərkəzi Xankəndi olmaqla Dağlıq Qarabağda Muxtar vilayətin yaradılması haqqında qərar qəbul etdi. Lakin həmin vaxt ədalətsizliyə yol verilərək Ermənistan SSR-nin sərhədləri daxilində kompakt yaşayan 300000-dən artıq azərbaycanlıya hər hansı formada muxtariyyət hüququnun verilməsindən imtina edildi.

Ermənilər Dağlıq Qarabağa muxtariyyət almaqla kifayətlənməyərək həmin ərazini də ələ keçirmək xülyası ilə muxtariyyət alandan 22 il sonra, daha doğrusu, 1945-ci ildə Ermənistan KP Mərkəzi Komitəsinin o vaxtkı birinci katibi Arutunov Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə SSRİ ali rəhbərliyinə müraciət etmişdir. SSRİ rəhbərliyi də müraciət məktubunu Azərbaycan KP Mərkəzi Komitəsinə göndərərək cavab verilməsini xahiş etmişdir. Həmin vaxt Mərkəzi Komitənin birinci katibi işləyən M.C.Bağırov tələbi rədd etmişdir. Lakin bununla belə bu məsələnin həllinin Şuşanın Azərbaycanda qalmaq şərtilə Dağlıq Qarabağın əvəzində Ermənistan SSR-nin əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil etdiyi Azərbaycanla həmsərhəd 3 rayonunun Azərbaycan SSR-nin inzibati sərhədlərinə daxil edilməsini təklif etmişdir. Görünür bu təklif erməniləri qane etmədiyindən onlar təklifə razı olmadıqları üçün SSRİ rəhbərliyi də həmin məsələni nəticəsiz saxlamışdır.

Ancaq 1948-1953-cü illər arasında SSRİ rəhbərliyinin göstərişi ilə azərbaycanlıların kütləvi surətdə öz əzəli torpaqlarından deportasiya edilməsinə başlanılmışdır.

Belə ki, SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci və 10 mart 1948-ci il tarixli qərarlarının icrası nəticəsində 1948-1953-cü illərdə 50000-dən çox azərbaycanlı Ermənistandakı öz ev-eşiklərindən, əzəli torpaqlarından deportasiya edilərək Azərbaycanın Kür-Araz ovalığı ərazisinə köçürülmüşlər.

*davamı növbəti sayımızda*

Salman Babayev
Respublika Veteranlar Təşkilatının əməkdaşı

# ВОЛНУЮЩАЯ ВСТРЕЧА С ФРОНТОВИКОМ

Начала в предыдущем номере





Вот как о ней писал заместитель Наркома Обороны СССР генерал армии Д.С.Сухоруков в статье в газете «Правда» за 6 мая «Из поколения победителей».

«Свой подвиг Екатерина Илларионовна Михайлова совершила в августе 1944 года при высадке десантов через Днестровский порт. Тогда медицинская сестра в числе первых высадилась на занятый врагом берег, под огнем противника вынесла семнадцать тяжелораненных краснофлотцев, оказала им первую помощь. В ходе боя лично уничтожила двадцать солдат противника, забросала гранатами дзот, двенадцать фашистов взяла в плен».

Сегодня трудно представить, что эта пожилая женщина мастерски владела боевым оружием, отличалась исключительным хладнокровием и находчивостью. В ходе десантной операции по захвату порта Прахово в Югославии в декабре 1944 года глав старшина Михайлова, истекая кровью, под огнем противника спасла жизнь семи раненым бойцам. Она подвязывала их к плавающим деревьям, чтобы они не утонули. В этом бою Екатерина Илларионовна уничтожила еще пятерых фашистов»

А в книге журналиста Х.Х.Камалова «Морская пехота в боях за Родину» на 181-й странице есть такие впечатляющие строки:

«Тяжелый бой пришлось вести и морским пехотинцам, высаженным в порт Илок в декабре 1944 года. Фашистам удалось контратаками оттеснить десантников к урезу воды. Около 12 часов вели тяжелые бои с пехотой и танками врага моряки, удерживая плацдарм до подхода основных сил десанта. Многие бойцы были ранены, среди них и отважная разведчица Катя Михайлова. Несмотря на ранение, главстаршина Михайлова оказывала помощь раненым, отстреливалась автоматным огнем от наседавших гитлеровцевк»

Славный боевой путь!

Высокую оценку Михайловой дал в газете «Комсомольская правда» бывший командующий Азовской и Дунайской флотилиями Герой Советского Союза вице-адмирал Г.Н.Холостяков:

«Боевой послужной список нашей Катюши сделает честь любому герою. С первого и до последнего дня Великой Отечественной Войны она находилась в действующей армии, и не просто находилась – врачевала и сражалась наравне с мужчинами. Ее фронтовые дороги прошли от Смоленска до Каспия и с Северного Кавказа до Керчи, Севастополя, в Румынию, Болгарию, Югославию, Венгрию, Чехословакию и Австрию. Два тяжелых ранения не остановили ее на этом пути. Спасая жизнь раненым бойцам на поле боя, она истребила 59 фашистских оккупантов...». Вот что значится в послужном списке Екатерины Илларионовны Михайловой (Деминой).

Тысячи женщин азербайджанской национальности с первых дней войны и до ее окончания бесстрашно сражались на всех фронтах и самоотверженно трудились в тылу.

Первая летчица Азербайджана Лейла Мамедбекова подготовила для фронта более 10.000 парашютистов-диверсантов и летчиков. Первая капитан морского парохода Шевкет Салимова бороздила моря и океаны, а в годы войны доставляла в Сталинград боевую технику и войска.

Военный рач Шурия Али-заде участвовала в боях по высадке десантов на санитарном судне «Туапсе».

Военный фельдшер Дюра Мамедова в сложных боевых условиях под Новороссийском доставляла на военные корабли необходимые лекарства и перевязочные материалы.

Вера Кекелидзе в сложных боевых условиях обеспечивала командование надежной радиосвязи.

Мария Рзаева героически сражалась под Сталинградом, ходила в разведку, доставляя ценные сведения о противнике для своего командования.

Галина Сафарова обеспечивала сражавшихся бойцов и командиров питанием...

Вечная им Память за их стойкость, отвагу и бесстрашие, которое они проявили в боях за нашу Советскую Родину.

Много лет я собирал письма с фронта наших бойцов и командиров, которые они посылали прямо с боевых позиций в глубокий тыл Страны. Эти волнующие документы патриотизма и дружбы братских народов читаешь сейчас со слезами на глазах. Приведу несколько таких трогательных документов:

### ЭТО ПИШЕТ ВАМ БАЛОГЛАН

Через степи и горы, леса и реки шлю привет тебе, родная Ленкорань, слышите ли вы меня родные мои, добрая мать, мои славные братья. Это говорит Ваш Балоглан, сын и воин Азербайджана.

Дыхание войны коснулось и моего родного Азербайджана, ненавистный враг рвется к цветущим садам, виноградникам, к родным селам. Проклятый фашист хочет утвердится на нашей земле.

Не будет мой Кавказ под пятой врага, не будет советский человек рабом фашистских извергов. Здесь, на Волге, в бою с врагом, отстаивая честь и свободу родного Кавказа, родного народа. Смерть за смерть!

Ваш, Балоглан.

(из письма родным героя Сталинградской битвы Балоглана Абасова)

### БЕНЗИН НЕ ТРАЧУ ВПУСТУЮ

«Пусть бакинские нефтяники знают, что высококачественный бензин, который они дают фронту, я не трачу впустую.

Летая на самолете, заправленном этим бензином, я уничтожил во время боя десять фашистских танков, двадцать шесть грузовых машин, две бронемашины, пять зенитных точек, две цистерны с бензином и сто девяносто фрицев...»

(Из письма летчика – младшего лейтенанта Нури Алиева трудящимся г.Баку в октябре 1942 г.)

### МЕНЯ МОГУТ УБИТЬ, НО ОТЕЧЕСТВО НИКОГДА

«Вы знаете, что я не люблю о себе писать. Но должен сказать, что бьем врага днем и ночью. Я знаю, что в любой момент могу умереть. Но умереть за справедливость и свободу своей Родины, поверьте большая честь. Меня могут убить, но Отечество – никогда!»

(из письма Мехмана Мамедли с фронта жене Нисеханум и дочери Зое)

### Я СРАЖАЮСЬ НА ДОНУ...

«Сейчас фашисты прут на 70 г. Они хотят овладеть богатствами Кавказа, бакинской нефтью. Они хотят осквернить нашу солнечную Родину. Мне, как и всем кавказцам, конечно хотелось бы в эти дни сражаться на подступах к Кавказу. Но я поставлен Родиной на очень ответственный пост: я сражаюсь на берегах Дона и твердо знаю: сражаясь у Дона, я сражаюсь за Грузию».

(из письма старшего лейтенанта Вахтанга Болокадзе любимой девушке «Комсомольская правда» 27.08.1942).

### ЗА РОДИНУ

«Шел бой за Новороссийск. Но несмотря на шквальный огонь фашистов, бойцы продвинулись вперед. Противник, поддержанный самолетами и массированным огнем артиллерии, перешел в контратаку. В этот напряженный момент я увидел за пулеметом красноармейца Сараджа Халилова. Он строчил по фашистам, прочесывая кусты. Вражеская контратака стала захлебываться. Пулемет Халилова был опрокинут разорвавшейся рядом миной противника. Герой-солдат продолжал беспощадно громить врага...»

(капитан М.Свинаренко)

(Из письма капитана М.Свинаренко, напечатанного в Комсомольской правде от 3 февраля 1943-го года).

### ВОЮЕМ ДРУЖНОЙ СЕМЬЕЙ

«Ты знаешь, папа, что сыны многих отцов в эти дни разбросаны по фронтам и каждый из них обороняет порученный ему рубеж. На своем переднем крае я защищаю русскую землю. Стою на нем, как крепость. Вот и сегодня я устроил хорошую музыку для фашистских захватчиков. От нее 27 гитлеровцев остались на поле боя. Боевой счет с каждым днем увеличивается. Мы уверены, что победим врага обязательно...»

(из письма Героя Советского Союза – С.Кязимова отцу – в ноябре 1942-го года).

### МЫ ЗАЩИЩАЕМ ОТЕЧЕСТВО

«Защищая Севастополь, мы знаем, что этим преграждаем немецко-фашистским бандитам путь на Кавказ к родному солнечному Азербайджану, славному городу Баку, к нашим городам, цветущим селам, богатым колхозам, что этим мы защищаем свои семьи, своих матерей, отцов, жен и детей от кровожадного хищного зверя. Ваш Кафур.

(из письма Героя Советского Союза Кафура Мамедова своим родным. 1942 года)».

В своей книге «Солдатский дом» Маршал Советского Союза Константин Константинович Рокоссовский писал: «Первого мая 1945 года над Рейхстагом взвилось знамя Победы. Наши солдаты ликовали, я смотрел на их лица и радовался вместе с ними Победе!»

Это величайшее счастье для солдата.

Сознание того, что мы отстояли свободу Родины! Выполнили свой долг, долг тяжелый, но прекрасный, выше которого нет ничего на земле.

### БЕЗ ПАМЯТИ ЖИТЬ НЕЛЬЗЯ

Спасибо тебе, Память! Как бы мы обеднели без тебя, скольких бы обидели, таких которые достойный того, чтобы о них никогда не забывали. Хорошо, если мы не будем забывать о тех, жизнь которых оборвалась в рассветную пору. Мы все у них в долгу. До последнего часа жизни нашей. Будем же почаще тревожить живую нашу Память и проведенное сегодняшнее наше мероприятие.

### БЕЗ ПАМЯТИ ЖИТЬ НЕЛЬЗЯ

Останется в памяти всех кто организовал эту встречу, кто читал стихи, кто пел фронтовые и послевоенные песни лучшим подарком к 75-летию нашей Великой Победы над фашизмом.

Победа и Память вот наш девиз и мы верим, что наследники этой Победы будут всегда помнить героев живых и мертвых.

Репортаж подготовил
А.Гритченко

AZƏRBAYCAN VETERANI

# Mustafa Kamal Atatürkün "İstiqlal" ordeni ilə təltif etdiyi, Türkiyə ordusunun azərbaycanlı generalı Cahangir bəy Bərkər



Cümhuriyyət ordusunun tərkibində ermənilərə qarşı vuruşan, Vətənindən didərgin düşdükdən sonra Türkiyə ordusunda general-mayor rütbəsinə kimi yüksələn, Qurtuluş savaşı iştirakçısı Cahangir Bərkər, Azərbaycan Cümhuriyyəti ordusunun Topçu briqadasının batareya komandiri Cahangir bəy Yusif bəy oğlu Novruzovdur. O, Türkiyədə soyad qanunu çıxdıqdan sonra "bərk ər, igid, döyüşkən ər" anlamı daşıyan "Bərkər" soyadını götürmüşdür.

1894-cü ildə, Bakı şəhərində hərbiçi ailəsində anadan olmuşdur. Zamanında Azərbaycanda hərbiçilər nəsli kimi tanınan görkəmli bir nəslin, Tovuzun Qovlar kəndindən, Novruzovlar nəslinin nümayəndəsidir. Azərbaycan hərb tarixinin dəyərli araşdırmaçısı Şəmistan Nəzirli "General Əliağa Şıxlınski ömrü" və "Arxivlərin sirri açılır" kitablarında Novruzovlar haqqında geniş məlumatlar verərək, bu nəslin Azərbaycanın hərb tarixinə 28 aprel işğalına qədər general - leytenant Mirzə Hacı bəy Novruzov, qvardiya polkovniki Kərim bəy Novruzov, 1918-20-ci illərdə isə general-mayor Teymur bəy Novruzov, mayor Rüstəm bəy Novruzov kimi hərbçilər bəxş etdiyini yazır və Azərbaycan Cümhuriyyəti Süvari diviziyasının komandiri general Teymur bəy Novruzovun, Mirzə Hacı bəy Novruzovun oğlu olduğunu qeyd edir.

Gənc zabit Cümhuriyyət ordusunda 1917-ci il oktyabr inqilabdan sonra Cahangir bəy Novruzov bir müddət Tiflisdə qalır. Orada Sultan Məcid Qənizadə ilə tanış olur. Sultan Məcid Qənizadə Cahangir bəyi Məhəmməd Əmin Rəsulzadə və Fətəli Xan Xoyski ilə tanış edir. 1918-ci ilin aprel ayında Tiflisdə həbs edilir. Lakin azərbaycanlı milli fəalların köməkliyi ilə həbsdən azad edilib Gəncəyə göndərilir. 28 may 1918-ci ildə Azərbaycanın istiqlaliyyəti elan olunduqdan sonra, qardaşları polkovnik Teymur bəy Novruzov (sonralar general), polkovnik Kazım bəy Novruzov və əmisi oğlu mayor Rüstəm bəy Novruzovla birgə Cümhuriyyət ordusuna qatılmışdır. Əlahiddə Azərbaycan korpusunun tərkibində Qafqaz İslam Ordusuyla birgə, İyun ayının ortalarından sentyabrın 15-nə qədər zəfərlə başa çatan Bakı yürüşündə iştirak etmişdir.

Bakı işğaldan azad ediləndən sonra, 23 sentyabr 1918-ci il tarixdən etibarən Qarabağ hərəkatı başlayır. Qafqaz İslam Ordusunun Qarabağ hərəkatı qüvvələrinə Cəmil Cahid bəy komandanlıq edirdi. Qarabağ hərəkatına 9-cu və 106-cı türk alayları, milli könüllü birliklər və 1 - ci Azərbaycan diviziyası daxil idi. Baş-leytenant Cahangir bəy Novruzovun komandiri olduğu topçu batareyası 1 - ci Azərbaycan diviziyasının tərkibinə daxil idi. Oktyabr ayının 4 - də Türk Qafqaz İslam Ordusu Ağdamdan Şuşaya doğru hücuma başladı. Əsgəran ətrafında güclü döyüşlərdən sonra oktyabrın 6-da Əsgəranla Şuşa arasında olan Əyri kənd ətrafında şiddətli döyüşlər baş verir. Cahangir bəyin Topçu batareyasıyla birgə 1-ci Azərbaycan diviziyasının digər topçu batareyalarının sürəkli atəşindən sonra Əyri kəndi ətrafında olan düşmən qüvvələri qaçıb dağılırlar. Bununla da ordunun Şuşa istiqamətində hərəkəti asanlaşır və iki gün sonra, 8 oktyabr 1918 - ci ildə Qafqaz İslam Ordusu Şuşaya daxil oldu.

1918-ci ilin oktyabr ayından etibarən komandiri olduğu topçu batareyası ilə Qarabağda və Zəngəzurda dinc əhaliyə qarşı qırğınlar törədən erməni separatçılarına qarşı döyüşlərdə iştirak edir, bölgədə asayişin bərqərar olmasında böyük xidmətlər göstərir və bütün bunların müqabilində "kapitan" rütbəsi ilə təltif olunur.

1920-ci ilin martın 21-də, Novruz bayramı gecəsində Ermənistan hökumətinin dəstəyi ilə silahlanmış erməni-daşnak qüvvələri Əsgəranda yerləşən Cavanşir piyada alayının mövqelərinə qəfləti hücum edib postlarda keşik çəkən əsgərləri qətlə yetirərək Əsgəran keçidini ələ keçirirlər. Bununla da Xankəndi və Şuşada yerləşən hərbi qarnizonlar çətin vəziyyətə düşür. 1920-ci il martın 26-da Azərbaycan ordusu Əsgəran istiqamətində general Dronun qoşunlarına qarşı genişmiqyaslı hücuma başlayır. Milli ordunun gənc zabiti Cahangir Novruzov da topçu batareyası ilə bu döyüşlərdə iştirak edərək böyük şücaətlər göstərir. Əsgəran bölgəsində başlanan şiddətli döyüşlər aprel ayının ortalarında Azərbaycan ordusunun zəfəri ilə yekunlaşır. Əsgəran qalası ilə bərabər Qarabağın digər bölgələri də azad edilərək, düşmən qüvvələri bütünlüklə məhv edilir.

1920-ci ilin iyun ayının sonlarında Azərbaycan birlikləri Həsənqala istiqamətində hərəkət edirlər, 31 iyunda Həsənqalaya, daha sonra isə Ərzuruma daxil olub, Soyuq Cermik bölgəsində qərargah qururlar. Burada bir müddət qaldıqdan sonra, Türkiyə Böyük Millət Məclisinin qərarıyla 56 nəfəri (və yaxud 65 nəfəri) zabit olmaqla 1200 (və yaxud 2000) nəfərlik süvari və piyada alayı Kazım Qarabəkir paşanın komandanlıq etdiyi Şərq ordusunun (15-ci kolordu) sıralarına qəbul olunurlar.

Azərbaycan hərbi birliyinin Türkiyə ordusuna qoşulacağı ilə bağlı xəbəri 8 iyul 1920-ci il tarixdə TBMM-də ümumi hərbi vəziyyətlə bağlı çıxış edən İsmət İnönü verir. Cahangir bəy 1920-ci ilin payızından başlayaraq, 1921-ci ilin əvvəllərinə qədər Şərqi Anadolunun ermənilərdən qurtarılması ilə sona çatan Doğu hərəkatında igidliklə vuruşur. Sarıqamışın, Qarsın, Gümrünün geri alınmasında iştirak edir. Qarsın Bənli Əhməd kəndi yaxınlığında Berna meydan müharibəsində toplarının dəqiq atəşi ilə düşmən təyyarələrini müharibə meydanından qovaraq komandirlərinin təqdirini qazanır. Qars yönündə gedən döyüşlərdən birində ağzından qəlpə yarası alır. Şərqi Anadolunun ermənilərdən təmizlənməsi ilə başa çatan Doğu Hərəkatından sonra, top batareyası ilə batı cəbhəsinə göndərilir. Burada İzmirin yunan işğalından azad edilməsi ilə nəticələnən döyüşlərdə iştirak edir. Qurtuluş savaşında göstərdiyi igidliklərə görə Cahangir bəy Mustafa Kamal Atatürk tərəfindən "İstiqlal" ordeni ilə təltif edilir. Savaşdan sonra "Şeyx Səid", 1-ci Ağrı, 2-ci Ağrı üsyanlarının qarşısının alınmasında iştirak edir.

1928-ci ildə təhsilini artırmaq üçün İstanbulda hərbi məktəbə daxil olur. 1929-cu ildə topçu məktəbindən məzun olduqdan sonra, "mayor" rütbəsi ilə təltif olunur. Hərbi xidməti boyunca bacarıqlı və intizamlı bir zabit kimi müntəzəm olaraq təltif olunur. Kütahyada Baş Komandanlığa bağlı olan Topçu alayının komandiri olarkən, üstün xidmətlərinə görə komandanlığın təqdirini qazanır. Komanda təhsilini bitirdikdən sonra 8 avqust 1948 - ci ildə general - mayor (tuğgeneral) rütbəsi ilə təltif olunur. İzmir şəhərində qarnizon komandiri, daha sonra isə yurd içi bölgə komandiri vəzifəsində çalışır. 1953 - cü ildə yaş səbəbi ilə təqaüdə çıxır.

Bərkər ailəsi və generalın vəfatı

Cahangir bəy Bərkər bir neçə dəfə infarkt keçirmişdi. Ömrünün 38 ilini vətən həsrəti və doğmalarının nisgili ilə keçirən bu cəfakeş insan, 20 iyul 1958-ci ildə ürəktutmasından vəfat etmişdir. Generalın cənazəsi hərbi mərasimlə Bornova məzarlığında dəfn edilmişdir.

Azərbaycanın və qardaş Türkiyənin istiqlaliyyəti, Türkün özgürlüyü üçün savaşmış bu fədakar insanı, Cümhuriyyətimizin doğuşunun 100, generalın vəfatının 60 illiyi ərəfəsində, minnət və sayqıyla anırıq...

## Allah rəhmət eləsin

Respublika Veteranlar Təşkilatının Rəyasət heyəti Sabirabad rayon Veteranlar Təşkilatının sədri
**Əliyev Zülfəli Hüseyn oğlunun**
vəfatından kədərləndiyini bildirir, yaxınlarına dərin hüznlə baş sağlığı verir

Nərmanov rayon Veteranlar Təşkilatı Salmanov Vahid İsmayıl oğlunun qardaşı
**Salmanov Sahib İsmayıl oğlunun**
vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Ağsu rayon Veteranlar Təşkilatının kollektivi II dünya müharibəsi veteranı
**İmanov Əlimövsüm Hacıbala oğlunun**
vəfatından kədərləndiklərini bildirir, yaxınlarına dərin hüznlə baş sağlığı verirlər.

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Azərbaycan Beynəlxalq Bankı ASC-nin Səbail filalı**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN, 1 illik abunə haqqı - 15 AZN**
**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

*Baş redaktor*
*Ülvi İBRAHİMLİ*
*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
*Təsisçi: Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
*VÖEN: 1701285981*
*verilmə tarixi - 23.11.2011*

*Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
*Əlaqə telefonu: 012 440-21-08*
*e-mail: az.veteran@mail.ru*
*Dövlət qeydiyyat nömrəsi - 3486*
*Dövlət qeydiyyat tarixi - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1290*